**Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin müsahibəyə çıxarılan vakant vəzifələri haqqında məlumat**

**Yevlax regional miqrasiya idarəsi, kiçik inspektor-kargüzar**
*İş yerinin ünvanı:* Yevlax şəhəri, Heydər Əliyev prospekti 199.

*Qulluq funksiyaları:*
Daxil olan sənədləri və müraciətləri, o cümlədən icraatda olan sənədlərlə əlaqədar digər sənədləri qəbul etmək və onların qeydiyyatını aparmaq;
Sənədlərin qanunvericiliklə nəzərdə tutulmuş müddətdə icra olunmasını nəzarətdə saxlamaq, icraçılar tərəfindən icra edilməsinin qeydiyyatını aparmaq və aidiyyəti üzrə göndərilməsini təmin etmək;
Göndərilən sənədlərin qanunvericiliyin tələblərinə və işgüzar yazışma qaydalarına uyğunluğunu yoxlamaq;
Qüvvədə olan qanunvericiliyi daim öyrənmək, işgüzar və peşə keyfiyyətlərini yüksəltmək, əmək və icra intizamına, etik davranış qaydalarına riayət etmək.
Vəzifənin tutulması şərtləri: təhsil: ən azı tam orta və orta ixtisas təhsilli, kompüter bilikləri: Microsoft Windows və Microsoft Office (orta səviyyədə).

**Yevlax regional miqrasiya idarəsi, kiçik inspektor-mühafizəçi**
*İş yerinin ünvanı:* Yevlax şəhəri, Heydər Əliyev prospekti 199.

*Qulluq funksiyaları:*
Mühafizə olunan obyektə məxsus əmlakın qorunmasına və şəxslər tərəfindən əmlakın mühafizə olunan obyektin ərazisinə və ya oradan kənara daşınmasına nəzarət etmək;
Xidməti binaya daxil olan və çıxan işçilərin təyin olunmuş qaydada giriş-çıxışlarına nəzarət etmək;
Mühafizə işinin təşkilinin təkmilləşdirilməsi üzrə təkliflər verilmək;
Qüvvədə olan qanunvericiliyi daim öyrənmək, işgüzar və peşə keyfiyyətlərini yüksəltmək, əmək və icra intizamına, etik davranış qaydalarına riayət etmək.
Vəzifənin tutulması şərtləri: təhsil: ən azı tam orta və orta ixtisas təhsilli, kompüter bilikləri: Microsoft Windows və Microsoft Office (orta səviyyədə).